# TƏKLİFLƏR

İran böyük dəyişikliklər ərəfəsindedir. Hakimiyyət’in başı bir yandan İslahatçı-Muhafizəkar çəkişməsi, o bir yandan da xalqın yüksələn istək və narazılığı ilə olduqca qarışmışdır. Bu geçiş dönəmi, gec vəya tez əsaslı və növbəti bir partlayışa nəticələnecəkdir. 1979 İnqilabı təcrübəsinin tekrarlanmasına icazə verməmək üçün o partlayışa qabaqcadan hazırlıqlı olunmalıdır. Çox da uzun olmayacaq bu geçiş dönəmində heç bir iş boşuna görülməməli və atılan hər bir addım, çox yaxçı düşünülmüş ondan sonrakı addımlar üçün zəmin hazırlamalıdır. Azəri Milli Demokratik Hərəkəti yaranmış indiki əlverişli vəz’iyyətdən bəsirətlə faydalanmalı və bu geçiş dövrü qurtaranda:

a-) Milli ruhlu və bilincli kadrlar tərbiyət edilmiş,
b-) Bu hərəkət və milli bilinclənmə bütün İran Türk (Azəri)ləri arasında geniş şəkildə yayılmış,
c-) Və bütün Cənubi Azərbaycan torpaqları, Mərkəzi-Cənubi İran və Xorasan Türk (Azəri)ləri bu hərəkətə qatılmış olmalıdır.

Yoxsa ginə də İran’da böyük bir dəyişim baş verəcək, ginə də İran Azərilərinin öz Müstəqil siyasi təşkilatı olmayacaq, ginə də Cənubi Azərbaycan Şahçılar, Xalqın Mucahidləri, Nehzət-e Azadi, Cebhe-ye Melli, Tudə Partisi, Xəlq-e Müsəlman kimi Fars-sərasəri təşkilatların at oynatdıqları meydana çövrüləcək və ginə də dövlət sturukturası və qanunlarında aparılacaq yeni dəyişikliklərdə, İran Türk (Azəri)lərinin milli haq və istəkləri öz əksini tapmayacaqdır.

Bu doğrultuda Azbiltop’a bir neçə təklifim olacaqdır. Əslində bu düşüncələrimin bə’zisi qıssa və’dəli, bə’zisi isə uzun və’dəlidir və təkcə bir bölümü sizinlə əlaqəlidir. O bir bölümünün kiminlə əlaqəli olduğunu, düzü mən özüm də bilmirəm. Amma ginə də hansı işlərin görüləbiləcəyi haqqında bir fikir oluşsun diyə bunları yazıb sizə göndərirəm:

# A-UMUMİ MƏSƏLƏLƏR:

Mənə görə İran'da Azərilərin önəmli dərəcədə asimile olduğu fərz edilməli (gerçək olan da budur) və buradan hərəkətlə, milli oyanış və dirçəlmə yolunda çalışılmalıdır. İran Azərilərinin təkcə siyasi hərəkətlərə ağırlıq verməleri indilik zərərli olabilər.

1- Milli Hərəkətimizin coğrafi alanı yeyinliklə genişləndirilməlidir, fəaliyət səthi Azərbaycan’ın **Perifər**inə (Zəncan, Həmədan, Savə, Qəzvin v.s. yə’ni Xəmsə Azərbycanı və Cibal Azərbaycan’ına), **Güney-Mərkəzi** İran [Qaşqay, **Xəmsə** (bu tayfaya həmişə **Beşoymaq** deməliyik) v.s.'nin olduğu yerlər] və **Xorasan**'a yayılmalıdır (baxınız aşağıda “əninə boyuna yayılmaq”a);

2- Milli Hərəkətimiz sür'ətlə dərinləşdirilməli, çeşidli xalq qurubları arasında [gənclər, öyrəncilər, aydınlar, şəhərlilər, kəndlilər, el-oymaqlar (tayfalar-elat), ruhanilər, dövlət adamları] yayılmalı, bunun yolları axtarılmalı;

3- Hər sahədə (Qəzetçilik, siyasi analist, sənətçi, ruhani, huquqçu v.s.) milli ruhlu kadrlar yetişdirilməli, var olanlar Milli Hərəkətimizə cəlb edilməli, hər sahədə dərnəkləşmə və təşkilatlanmağa başlanmalıdır;

4- Azərilər Hakimiyyətin iç siyasi çəkişmələrinə qət'iyyətlə qatışmamalı (bu, Müstəqil Azəri Milli Hərəkətinin təşkilinə, onu ikinci plana itəliyerək, mənfi tə'sir görsədər), İran'ın siyasət səhnəsinə, öz milli mənafe'imizi əsas alaraq, qət'iyyən **Müstəqil** şəkildə girməli; heç bir cinaha indilik aktif şəkildə dəstək verməməli. Çünkü qarşı cinah Milli Hərəkətimizə zərbə vurmağa qalxışabilər. Bunun nəticəsi də çox çətin şərayitdə çıxardılan movcud bir neçə dərgi və dərnəyin öz əlimizlə bağladılması olabilər. Qıssa vaxt və az enerjimizi İslahatçı-Muhafizəkar davasında boşa xərcləməməliyik;

5- Şübhəsiz Demokrasi Hərəkətinin güclənməsi və rəformların gerçəkləşməsi bizim xeyrimizədir (bizə yaşama fürsəti verər). Biz onların gerçəkləşməsi üçün aktif olaraq tərəf tutmamaqla birlikdə, Reformistləri dolaylı şəkildə dəstəkləməliyik;

6- İran'ın siyasət səhnəsində, məntəqədə var olan Kürd Hərəkəti kimi, öz Müstəqil və Demokratik şuarlarıyla Müstəqil və Demokratik Azəri Hərəkətini oluşdurmalıyıq. Buna görə də sərasəri ideolojilərə qoşulmamalı, onları Milli Məsələyə qarışdırmamalı və ona üstün tutmamalıyıq (bu ideolojilərin yelpiyi Pan Türkism, Sosyalism, və İslam'dan Demokrasi'yə qədər geniş olabilər);

7- Həm İslahatçı, həm Muhafizəkarlar və həm bunların eşiyindəki Fars Milli-Məzhəbi və Laik siyasi güclər arasında Milli Hərəkətimizə muttəfiqlər qazanmaq, Demokratik Blok oluşdurmaq və onu genişləndirməyi hədəf almalı;

8- Xususiylə Xatəmi kimi iqtidarsız olan məqamlara yazılan açıq məktubların propaqandadan başqa heç bir əməli faydası yoxdur. Azəri Milli Hərəkəti'nin xalq arasında geniş şəkildə kök salmadığı, güclü sivil-siyasi təşkilatlara sahib olmadığı bir şərayitdə, belə məktubların tez tez yazılması, diqqətləri olmayan Milli Azəri Hərəkətinə çəkəbilər, dövləti luzumsuz yerə təşvişə salabilər və Milli dirçəliş hərəkətimizə zərbə vurmasına səbəb olabilər. Məncə başqa sivil metodlar axtarmalı və bu yazışma metodundan təkcə propaqanda vəya Xamneyi-Xatəmi (Muhafizəkar-İslahatçı) rəqabətindən yararlanmaq üçün istifadə etmək daha məntiqlidir;

9- Hamının xususiylə gənclərin zəhləsi gediyi Xamneyi kimi dini məqamları mədh etməkdən və ya onunla Azəri Hərəkəti arasında bağ yaratmaqdan uzaq durmalıyıq:

a-) Birinicisi Xamneyi və təmsil etdiyi siyasi düşüncənin yolunun sonuna yaxınlaşdığı, sonunda utuzan tərəf olacaqları indidən bəllidir.

b-) İkincisi necə Məşrutiyət zamanında Demokrasiyə qarşı gələn Qacarların Azəri (Türk) olması, o vaxtın İran'ında və təşkil tapmaqda olan Fars milliyətçiliyində Türklük və Azəriliyə qarşı çox böyük bir nefrət və antipatı hissi yaratmış idi (ki tə'sirləri günümüzə dək davam edir);

bugün də Xamneyi, Mişkini, Xalxali və Həsəni kimi gələcəyi olmayan səfih və mənfur şəxslərin varlığı İran'da Türklük və Azəriliyin əleyhinədir.

c-) Ayrıca dünyada azadlığın baş düşməni e'lan edilmiş Xamneyi'dən Azəri Millətinə azadlıq verəcəyini ummaq sadəlovhluq olar. O, azadlıqları tə'min etmək istəseydi, geçmiş 22 ildə elərdi.

Onun kimilərlə Azəri Hərəkəti arasında hər hansı bir bağ qurulmamalıdır, tərsinə Azəri Milli Hərəkətinə güc və prestij qazandırmaq üçün, Reformist və Demokrat Azəri Ruhaniləri tapıb Milli Hərəkətə cəlb etməli və onları ön plana çıxartmalıyıq. Elə buna görə də Azbiltop yazılarının başlığında Xamneyi'nin "Azərbaycan səre İran əst" sözünə yer verməniz doğru bulmuram. Hətta uyqun bir vaxtda Xamneyi'yə: **"Azərbaycan İran'ın başıdır", onu dilsiz bıraxmıyaq!** başlıqlı bir məktub da yazılabilər**.**

# B-ƏNİNƏ BOYUNA YAYILMAQ

1- Son illərdə görülən işlər nəticəsində Zəncan'ın Azərbaycan'ın bir parçası olduğu gerçəyi muvəffəqiyyətlə təsbit edilmişdir. Bundan sonrakı iş:

a-) Azərbaycan'ın Perifer Ostanları Həmədan, Mərkəzi, Qum, Qəzvin və Təhran Ostanları'nın Azərilərlə məskun olan bölgələrinin də yə'ni **Xəmsə və Cibal Azərbaycanı (Azərbaycan-e Xəmse, Azərbaycan-e Cebal)** Azərbaycan'ın birər parçası olduğu gerçəyini təsbit etmək, oraları Azərbaycan'a enteqre eləmək. Buradakı düşüncə budur: **Azərilərlə məskun olan yerlər Azərbaycan'a daxildir.**

b-) Kürdlərin Qərbi Azərbaycan Ostanı'nın Kürdlərlə məskun olan bölgələrinə Mukriyan Kürdüstanı (Kordestan-e Mokriyan) dedikləri kimi, biz də bu məntəqələrin Azərilərlə məskun olan bölgələrinə tarixi adları yanı **Xəmsə və Cibal Azərbaycanı (Azərbaycan-e Xəmse, Azərbaycan-e Cebal)** deməliyik və bu adı yayqınlaşdırmalıyıq.

c-) Bir də fəaliyət səthini Mərkəzi-Cənubi və Xorasan'a yayma, buraların Azərilərini (Türklərini) İran'dakı Umum Azəri Milli Hərəkətinə qataraq hərəkət alanını genişlətmək, gücünü artırmaq;

2- Cənubi Azərbaycan'ın **Periferində Azəri-Fars xəttinə** yə'ni Qəzvin, Həmədan, Təhran, Qum və Mərkəzi Ostanlara xususi önəm verilməlidir. Buralardakı yerli Azərilik-Türklük ömrünün son günlərini yaşayır və yox olmaq üzərədir. İlk mərhələdə hər Ostan'ın lap çox Azəri nufusa sahib bir neçə şəhərində şe'r, dil, folklor, muzik və sosyal dərnəklər açılmalı, heç olmasa bir Azəricə qəzet nəşr edilməli, Azərilərlə məskun şəhərlərdə Şəhər Şuraları ilə irtibata geçilməlidir. Qəzetlərdə "Azərbaycan Coğrafiyası", "Azərbaycan'ın Unudulmuş Şəhəri" kimi başlıqlar altında məsələn Həmədan Ostanındakı Azəri şəhərləri vəya Savə haqqında yazılar yazılabilər, Azbiltop saytında Azərbaycan şəhərləri içində Ərak və Savə'ni də əlavə edəbilirsiniz;

3- **Xorasan Ostanı** və **Mərkəzi-Güney İran**'da Azərilərlə məskun yerlərdə oxşar dərnəklər açılmalı, daha öncədən açılanlarla əlaqə qurulmalı, Şəhər Şuraları ilə irtibata geçilməlidir. Buranın Azəriləri haqqında Qəzetlərdə seri yazılar çıxmalı, onların da milli və mədəni istəklərinin seviyyəsi yüksəldilməlidir, Bütün mədəni və ədəbi törənlərə (hətta Səttarxan, Xiyabani v.s.'ni anım mərasiminə) **Perifer**, **Mərkəzi-Güney** İran (Qaşqay eksklavı), **Xorasan** (Əfşar eksklavı) Türk (Azəri)ləri də də'vət edilməlidir;

4- Quzey Xorasan eksklavı'nda və Güney İran'da Qaşqay eksklavı'nda araşdırılıb ən çox Azəri nufusa sahib olan birər şəhər bəlirlənməli (məsələn sırayla **Quçan, Firuzabad**), və bu iki şəhər bundan sonra Xorasan Azəriləri və Güney Azərilərinin mərkəzləri kimi təqdim edilməli və bu iki şəhərdə heç olmazsa birər Azəricə qəzet nəşr edilməlidir;

5- **Kürd-Azəri xətti** bərkidilməlidir. Qərbi Azərbaycan'da Azərilərlə məskun yerlərə, Sayınqala, Sulduz v.s., Kürdüstan və Həmədan Ostanı'ndakı Sonqur, Qorvə, Bicar, Kəngaver kimi Azəri yerləşim mərkəzlərinə xususi diqqət yetirilməlidir. Oralardakı Azərilərlə əlaqə qurulmalı, onları dərnəkləşdirməli və haqlarında Qəzetlərdə tez tez yazı yazılmalıdır;

6- **Mukriyan** Ostanı'nın qurulmasına (ki böyük ehtimalla belə olacaqdır da) hazırlıqlı olmalı və bu durumda Qərbi Azərbaycan'dakı Azəri şəhər və kəndlərindən heç birisinin yeni təşkil tapacaq Mukriyan Ostanı içində qalmamasına sə'y görsədilməlidir. Buna görə indidən buranın Azəriləri üzərində çalışılmalı, oralardakı Azərilərlə təmasa geçilməlidir. Qəzetlərdə onların Azərbaycan Ostanları'nda qalmaq istədikləri dönə dönə yazılmalı, bir yandan Kürdüstan Ostanı'ndakı Azəri yerləşim mərkəzlərinin Kürdüstan'dan ayrılıb Zəncan və Həmədan Ostanları'na bağlanmaq istədikləri, o bir yandan da Həmədan və Zəncan Ostanlarının Azərbaycan Ostanları olduqları movzusu işlənməlidir;

7- Əyer Mukriyan Ostanı Qərbi Azərbaycan'dakı təkcə Kürd bölgələrindən təşkil tapacaqsa və Azəri şəhər və kəndlərinin hamısı Qərbi Azərbaycan'da qalacaqsa bu şərtlərdə məncə Mukriyan Ostanı'nın qurulması Azəri Milli Hərəkəti üçün çox müsbət bir hadisə sayılabilər. Çünkü:

a-) Azərilərlə Kürdlərin eyni idari vahiddə yer almaları Azəriləri, Kürd qorxusundan, mərkəzi Fars dövlətə yaxınlaşdırır və Molla Həsəni kimi səfihləri başımıza musəllət elir.

b-) İnqilab'ın ilk illərində Fars Şovenismi Kürdlərin Demokratik Milli Hərəkətini təəssüflə Azərilərin əliylə əzdiyi də unudulmamalıdır. Elə Fars Şovenismi'nin istəyi də budur ki özü bir qırağa çəkilib, Azərilər əsil problem olan Farsları unutub yerinə Kürdlərlə uğraşsınlar.

c-) Ayrıca Yuqoslaviya və Sovyetlərin təcrübəsi, etnik anklavların həmişə problem qaynağı olduğunu görsədir.

d-) Azərilər gələcək fedəral vəya Müstəqil Azərbaycan torpaqlarında etnik Kürd anklavı yaratmaq yerinə Həmədan, Tehran, Qum və Mərkəzi Ostanlarda qalmış Azərilərlə məskun Xəmsə və Cibal Azərbaycanı torpaqlarını özlərinə enteqre etməli və qurtarmalıdırlar.

İran üçün Demokratik və umumi pirənsib budur: **Azərilərlə məskun olan yerlər Azərbaycan'a daxildir (və Azərilərlə məskun olmayan yerlər Azərbaycan'a daxil deyildir.)**

# C-SİVİL QURUMLAR

Dövlət aparatındakı Azəri məqamlar, din adamları (Ruhanilər) və qanuni sivil qurumlarla sistematik və orqanik əlaqələr yaradılmalıdır. Bu rabitələrin movzusu aşağıdakılar olabilər;

1- Azərilərlə məskun şəhərlərdə **Şəhər Şuraları** və bələdiyələrlə sıx əlaqəlqər qurulmalıdır:

a-) Azəri dil və musiqi kurslarının açılması,
b-) Xiyaban və məhəllələrə Azəri adlarının qoyulması;
c-) Adlımların heykəllərinin tikilməsi, məzarlarının və tarixi tikintilərin mərəmməti;
d-) Uşaqlara Azəri adların qoyulabilməsi qabağındakı idari mane'lər;
ə-) Radyo-televizyon proqramlarındakı Azəri dilinin keyfiyyəti və bu proqramların muddətini artırmaq;
f-) Festival, ildönümü və anımlar tərtibləmək v.s.

2- Xobrəqan və Şura Məclisi'ndəki **Azəri Millət Vəkilləri** ilə sıx əlaqələr qurulmalıdır.(İran'ın Ermənistan'la hamıya zərərli olan xarici siyasəti, PKK'nin Qərbi Azərbaycan'da yaratdığı təhlükə, Azərbaycan'ın ekonomik problemləri və Anayasanın tanıdığı milli haqlardan məhrumiyət kimi movzularda);

3- Şiə Din Adamları xususiylə Azərbaycan'dakı Ruhanilər və din mədrəsələri ilə əlaqələr yaradılmalıdır, (onlara Erməni və Kürd din adamlarının Erməni və Kürd məsələsi ilə olan müsbət movze'ləri v.s. xatırladılmalı), Etnik Azərbaycan'dakı Şiə tələbə mədrəsələrinə Azəricə çap olmuş nəşriyyə və din kitabları, Quran v.s. göndərilməli;

4- Fars milləti, Reformist və Demokrat aydın və siyasilərinə propaqandaya, əntellektuel və siyasi dəstəklərini qazanmağa əhəmmiyət verilməli;

5- İran'dakı İnsan Haqları Dərnəkləri ilə dayimi və aktif şəkildə irtibat qurulmalı.

# D-QƏZETLƏR

Görünən o ki bundan sonra tez tez Azəricə çıxan Qəzetlər bağladılacaq, bu durumda:

1- yazılarda şuar vermək, deklaratif olmaq, yalvarmaq, sızlamaq, gileylənmək, təhdid eləmək'dən uzaq durmalıyıq. İran'dakı Azəri Milli Hərəkəti və Dövlət arasındakı bugünkü güc tarazına baxanda, bu metodların Dövlət üzərində heç bir tə'siri olanmayacağı, onu heç bir milli rəforma məcbur eliyənmiyicəyi aydındır. Ancaq yaxçı təşkilatlanmış, beynəlxalq İnsan haqları təşkilatlarının dəstəyini arxasına almış, güclü bir xalq hərəkəti bu dövlətlə çənə vurub onu rəforma məcbur edəbilər.

2- yazılarda həmişə Demokratik pirənsiplərə bağlı, irqçilikdən iraq, umumi danışmaqdan uzaq, konkiret və açıq olmalı və keyfiyyətə əhəmmiyət verməliyik. Fars Şovenismi terminolojisini işlətməməli və onun yerinə milli Demokratik terminolojimizi yayqınlaşdırmalıyıq. Məsələn Azəri nəşriyyələrində Mellət-e İran vəya Qovmha-ye İran tərkibi heç vaxt işlədilməməlidir, onun yerinə Mərdom-e İran , Quruhha-ye Qovmi yerinə isə Quruhha-ye Melli vəya Quruhha-ye Etnik yazılmalıdır;

3- Azəri aydınlar öz yazılarında kilasik düşüncələri tekrarlamaqdan əl çəkməli (Azərilərin İran'ın bütünlüyünü qoruma, Fars dilini yayma və İslam'ın beyzəsi üçün savaşdıqları nağıllarından) bu movzulara heç girməməlidirlər. Çünkü məqamlar üçün bunların iynə ucuca dəyər və mə'nası yoxdur, tərsinə onlar bunların heç birisini eləməmiş Ermənilərlə ittifaqa giriblər. Azərilər bunları eləməsəydilər də, ginə də İran vətəndaşı olduqları və İnsan Haqları gərəyi Farslarla bərabər haqlara sahib olmalıydılar. Hərəkətin başlanqıc nöqtəsi **Vətəndaşlıq** və İnsan **Haqları pirənsibləri** olmalıdır;

4- Ayrıca İran'da Milli bir vahid kimi ortaya çıxabilmək üçün, Farslarla olan bənzərliklərimiz deyil (Çünkü bunlar bizim asimilasiyonumuzu asanlaşdıran faktorlardır), onlarla aramızda olan lap kiçik fərqlərimizi belə, üstü örtülü olsa da, tə'kid etməliyik. Bu fərqlərimiz dilimiz, Türki dünyasına daxil olmağımız, siyasi ən'ənə və sünnətimiz (Demokratlıq), məzhəb fərqimiz (bizdə Farslarda olmayan Ələvilik və Laik Cə'fərilik vardır), Milli adətlər, bayramlar (Xıdır Nəbi), dəstanlar (Dədə Qorqud, Koroğlu, Əsli Kərəm), muzik, aşıqlarımız v.s.'dən ibarətdir;

5- Bağladılan Qəzetlərin yerinə, xususiylə Zəncan, Urmu və Təhran kimi istiratejik şəhərlərdə tezliklə yeniləri açılmalı, mədəni aydınlanmada davamlılıq həmişə qorunmalıdır;

6- Qəzetələrdə İran'ın xarici siyasətini (Azərbaycan və Ermənistan, PKK ilə olan əlaqələrini) elmi şəkildə sorqulamalı, Hakimiyyəti bölmək üçün Şiə torpaqlarının (Qarabağ) əldən getdiyi və dövlətin buna qarşı sakit qaldığı movzusu təbliğ edilməlidir;

7- Çeşidli Qəzetlərdə eyni movzularda çıxan orijinal məqalələr kitab halında çap olunabilər;

8- Tə'sir alanını genişletmək üçün, sərasəri Fars Qəzetlərə Azəricə çıxan Qəzet, nəşriyyə və kitabların e'lanı veriləbilər;

9- **İran Azəri yazar və Qəzetəcilər Birliy**i'ni qurmağın vaxtı çatmışdır. İran'dakı movcud musayid siyasi atmosfer,100'ə yaxın Azəri Qəzetin çıxması, bunların tez tez bağladılmaları, bu Qəzetlərdə yazanların həm umumi Qəzetçilik məsləyi, həmdə Azəricə yazmaq və Azərbaycan'da işləməkdən dolayı özlərinə xas məsələləri olduğundan ötürü bu Birliyin qurulması vacibdir. Bu bilirlik ayrıca Azərilərin məsələlərini sistematik və daha yüksək bir seviyyədə İran içi və eşiyindəki İnsan Haqları Təşkilatlarına çatdırmaq üçün də lazimdir.

# Ə-İNTERNET

Azbiltop'da internetdən daha aktif şəkildə yararlanmaq üçün xususi komitə qurulmalıdır, Azbiltop İran Azərilərinin bilgi anbarına çövrülməlidir:

1- **Azbiltop'**da önəmli Azəri nəşriyyə, Qəzetlərin əhəmmiyətli və orijinal məqalələrinə, bunların hamısının e-mail və post adreslərinə yer verilməlidir;

2- Xorasan, Mərkəzi-Güney İran Azərilərinə, Xəmsə və Cibal Azərbaycan'a, tarixdəki Türk-Azəri sülalərə (Qacar, Əfşar, Səfəvi, Ağqoyunlu, Qaraqoyunlu, Elxanlı, Cəlayirli, Səlcuqlu v.s.) və şahlarının listinə, Türk-Azəri dövlətlərin xəritələrinə yer verəbilərsiniz. Əsas budur: **İran'a hakim olmuş bütün Türki dövlətlər (Qəznəlilər, Xarəzmşahlar, Səlcuqlular v.s.), və Türki olsunlar vəya olmasınlar Azərbaycan'da qurulmuş bütün dövlətlər Proto-Azəri və Azərbaycan'da qurulmuş olan Bütün Türki dövlətlər (Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar, Qacar v.s.) Azəri dövlətləridir.**

3- İran Azəriləri və Cənubi Azərbaycan'la əlaqəli həftəlik vəya aylıq xəbər bultənləri düzəldilməli;

4- Asoru-Ermənilərin Urmu-Salmas-Xoy'da törətdikləri Azəri Qətliamı'nı Azbiltop'a qoyubilərsiniz;

5- Azəri millətvəkilləri, İran'dakı Azərbaycan'la əlaqəli başqa qurum və dərnəklərin ad və e-mail adresləri verilməli;

6- Daha geniş kütləyə xətab edəbilmək üçün sayt Fars dilində də hazırlanmalıdır. Bu həm Farslara, həm Azəricə yazıb oxumaq bilməyən Azərilərə, həmdə əslən Azəri olub fəqət asimilasiyon siyasəti nəticəsində Azəri dilini danışabilməyən, başa düşməyən yüzminlərcə İranlı üçün lazimdir. Xatırladıram ki PKK'nin belə internetdə onlarca Türkcə hətta Farsca saytı vardır.

# F-HUQUQ KOMİTƏSİ

Milli haqların dövlət tərəfindən ixlalını bəlgeləmək üçün Huquq Komitəsi qurulmalıdır. Bu komitənin vəzifələri:

1- İran dövlətinin yerinə gətirməsi lazim olan amma yerinə gətirmədiyi vəzifələri iki bölümdə bəlirləmək:

a-) İran'ın imzaladığı uluslararası anlaşmalara görə,

b-) İran'ın anayasa kimi öz qanunlarına görə.

2- Bu ixlalları tə'qib etmək, **Qəzetlərdə çap etmək;**

3- İran'dakı İnsan Haqları Dərnəkləri ilə sıx əlaqə qurmaq;

4- Bağladılan hər bir Qəzetəylə əlaqəli huquqi mucadiləyə davam etməli, həmişə bir üst məhkəməyə başvurmalı və bütün bunları da İnsan Haqları Dərnəklərinə və Qəzetlərə intiqal etdirməli;

5- İxlallar haqqında **İllik rapor** hazırlamaq (ana dilin tədris olunmaması, uşaqlar və işyerlərinə Türk-Azəri ad yasağı, televiziyon proqramlarındakı təhqirlər, bağladılan Azəri Qəzetlər, yıxdırılan vəya restore edilməyən tarixi tikintilər, tarixi və coğrafi yerlərin Türk-Azəri adlarının dəyişdirilməsi v.s.), bu illik raporları İran'dakı Mediya, siyasi partilər və İnsan Haqları Dərnəklərinə çatdırmaq;

6- İran qanunları çərcüvəsində bu ixlallar üçün məhkəmələrdə **Dava** açmaq (məsələn ana dillərin tədris edilməməsi üçün Vezarəte Amuzeş və Pərverəş əleyhinə, uşaq adlarını qoymada çıxartdığı çətinliklər üçün Səbte Əhval'a qarşı dava açılmalıdır);

7- Anyasanın 15, 19 maddələrinə odaqlanmaq, həm Hakimiyyət içində dövlətdə, və həm onun eşiyində (xususən İran Azəri-Türklərin özündə) var olan maniələri aydınlaşdırmaq.

# G-AKTİVİTƏLƏR

1- **İllik Ödül Törənləri** hazırlamaq. Bu törənlər üç bölümdə olmasına diqqət yetirilməlidir:

a-) Azərbaycan,
b-) Cənubi-Mərkəzi İran (Qaşqay Eksklavı)
c-) Xorasan.(Əfşar Eksklavı)

Hər bölümdə ən yaxşı jurnalist, yazar, şair, araşdırmaçı, aşiq, teatr oyunçusu, sinemaçı, milli mədəniyyətimizə xidmət eləmiş Şəhər Şurası üzvü vəya Ruhani v.s.yə birər ödül verilməli;

2- Bütün mədəni və ədəbi törənlərə (hətta Səttarxan, Xiyabani v.s.'nin anım mərasiminə) **Perifer (Xəmsə və Cibal Azərbaycanı)**, **Mərkəzi-Güney** İran (Qaşqay Eksklavı), **Xorasan (Əfşar Eksklavı)** Azəriləri də də'vət edilməlidir;

3- UNESCO tərəfindən 21 Fəvral **Dünya Ana Dilləri Günü** e'lan edilmişdir. Bu gündə festival, konferanslar geçirtmək;

4- Ermənі və Asoruların Azəriləri qətliam etdikləri və **Cilovluq** olaraq bilinən hadisələrin ildönümünü tutmaq, Urmu və Salmas'da yeriyiş, konferans, seminarlar tərtibləmək;

5- Bir neçə milli festival və bayram oluşdurmaq, unutulanları dirçəltmək [Xıdır Nəbi Bayramı (6 May), Babək Qızıləyin Günü, Ana Dili Günü (21 Fevral), Aşiq Festivalı, Cilovluq Hadisələri (17 Març), Azəri Tayfaları (el-oymaq) Günü, 21 Azər Günü, v.s.] bu festivallar hər ilin sabit və eyni bir günündə, dəyişik Azərbaycan şəhərlərində (biri Zəncan, biri Urmu, biri Savə v.s.) olmalıdır; Bu günlərin bütün İran millətlərinə deyil, təkcə İran Türk (Azəri)lərinə məxsus olmasına, yə'ni milli karaktər daşımalarına diqqət edilməlidir.

6- Başqa milli-etnik quruplarla (Bəluç, Kürd, Lor, Türkmən, Ərəb,v.s.) İran'da hər il Qəyri Fars Dilləri Kongresini qurmaq.

# H-FƏRHƏNGİSTAN

Uzun və'dədə Fərhəngestane Zəban, Ədəb və Honəre Torkiye Azəri'ni qurmaq. Bu təşkilatın əsas vəzifəsi Azəricəni rəsmi və dövlət dili olabiləcək seviyyəyə gətirmək üçün maddi şərayiti yaratmaq olmalıdır. Bu maddi şərayit arasında bir sıra təməl mətinlərin çap olunması da vardır, məsələn:

1**- Uşaq** ədəbiyyatı**,** dərsliklər, dərgilər (çox sayıda və bütün İran səthində);

2**- Kilasık** mətinlər (Nəsimi, Cahanşah, Fuzuli, Xətayi, Nəbati, Mö'cüz, Dədə Qorqud, Koroğlu, Əsli-Kərəm v.s.)**;**

3- Kiçik, orta, böyük sözlüklər **(Azəricə-Farsca, Farsca-Azəricə, İngiliscə-Azəricə, Azəricə-İngiliscə, Azəricə-Fıransızca, Fıransızca-Azəricə, Ərəbcə-Azəricə, Azəricə-Ərəbcə, Almanca-Azəricə, Azəricə-Almanca)**. Azərbaycan Rəspublikasında çap olunan sözlüklər Ərəb əlifbasına çevrilərək çap olunabilər;

4- **Perifer** (Həmədan, Mərkəzi, Təhran Ostanları), **Mərkəzi-Güney, Xorasan, El-Oymaq** (Qaşqay kimi tayfalar) şairlərinin əsərlərini çap etmək;

5- İran Azərbaycanı-İran Azəriləri ilə əlaqəli Quzey'də çap olunmuş əsas referans kitabları, ansiklopediləri Ərəb əlifbasıyla çap eləmək;

6- Geçmişdə İran'da çap olunmuş Azəricə Qəzetləri, məsələn Məşrutə dövründə, Xiyabani zamanındakıları, mücəllədlər halında çap etmək;

7- Xələcistan'da ən çox Xələc nufusa sahib şəhərini oranın mərkəzi olaraq təsbit etmək, Türki dillərindən olan Xələc dilinə və Xorasan'da Xorasan Azəricəsinə sahib çıxmaq, yox olmaqda olan bu iki dil və ləhcəylə Qəzet çıxarmaq, yazılı əsərlərini toplamaq, çap etmək;

8- **İran Azəri Teatr və Sinema Sənətçiləri Birliyini** qurmaq. İllik törənlərdə məşhur Azəri sinemaçı, teatrçılara ödüllər vermək (Cəfər Pənahi, Yədullah Rovyai, hətta Ququş v.s.).

*Dadaş Qaraqoyunlu Qızılbaş*